

## HAFİZ ƏLİMƏRDANLI

# PAY YOXDUR TORPAĞIMDAN

I

Ürəyimdə bir xəbər,
Hələm vardır igidlər,
Bəlkə on milyon nəfər,
Əmrə hazır ərənlər,
Bu torpağı sevənlər,
Doğma anası qədər.

Yetişdi savaş çağı,
Qurtaraq Qarabağı,
Hər şəhəri, hər dağı,
Çiçəkli bağça-bağı,
Yaddan çıxartsın yağı.

Səsləndi ali rəhbər,
Qalxsın müsəlləh əsgər,
Göstərsin hər gün hünər,
Düşməni alsın kədər,
Ondan qalmasın əsər.

İnşaallah ucalar,
Dalğalanan bayraqlar,
Ay-ulduzlu saçaqlar,
Yenə Şuşada təkrar,
Düşmən olar tarimar.

II

Qalxdı ayağa millət,
Yarandı gözəl vəhdət,
Düşməni aldı dəhşət,
Zəfər çaldı ədalət,
Budur indi həqiqət.

Göstərildi rəşadət,
Qəhrəmanlıq, şücaət,
Şuşa azad, nəhayət,
Ürəklərdə fəxarət,
Alqışlar bilməz sərhəd.

İndi eşitsin cahan,
Pay yoxdur torpağımdan!
Bu torpaqlar ərmağan,
Verilmişdir Tanrıdan,

Qarabağla Naxçıvan,
Quba, Xaçmaz, Lənkəran,
Abşeron, Şəki, Şirvan,
Qədim Təbriz, İrəvan,
Adlanıb Azərbaycan,
Adlanıb Azərbaycan.

*16.11.2020*

# ÖTDÜ BAHAR, GƏLDİ XƏZAN, NEYLƏYİM

*(qəsidə)*

Ötdü bahar, gəldi xəzan, neyləyim?
Ağ saçları düzdü zaman, neyləyim?

Hər keçən gün xatirədir, qəlbimdə,
Gələn günlər hələ pünhan, neyləyim.

Ürəyimdə nə çox arzu, istək var,
Yaratmağa varmı güman, neyləyim?

Heç bilməzdim, illər belə tez keçər,
Sevinc gedər karvan-karvan, neyləyim.

İndi ondan danışmağa dəyərmi?
Qayıtmağa yoxdur imkan neyləyim.

Yadındamı bağça-bağı gəzərdik,
Həmən bağlar oldu viran neyləyim.

Hər birimiz bir çinara çıxardıq,
Xan çinar da düşüb yaman, neyləyim.

Çalışardıq gül-çiçəkdən pay alaq,
Düzünməzdik gələr hicran, neyləyim.

Çox uzaqda qalıb indi o illər,
Sözlərim də tapmır ünvan, neyləyim.

Ötən gündən demək nəsə əbəsdir,
Qəlbim edir ahu fəqan, neyləyim.

Kim bilmir ki, hökmü verən zamandır,
Həyat olubdur imtahan, neyləyim.

Sirlər dolu bir dövranda qalmışam,
Heç susarmı, söylə, vicdan, neyləyim.

İllər keçir, bir-birindən dolaşıq,
Tərs adamlar alıb meydan, neyləyim.

Ayrılmışdır sanki dünya məhvərdən,
Ayaq tutub, gedir yalan, neyləyim.

Bu dünya belədir, bəlkə də deyil?
Qalmış qəlbim tam nigaran, neyləyim.

Ömrün payızına artıq yetişdim,
Qışına halım nagüman, neyləyim.

Qismət olsa zaman verər ərməğan,
Ahıllığı sevər bu can, neyləyim.

Ahıl yaşa yetməyimə hazıram,
Təki dostlar olsun həyan, neyləyim.

Ey Hafiza, şükr eylə ki, dostların,
Səndən ayrı deyər candan, neyləyim.

Bu dünyada nə qazansam qalacaq,
Desinlər qoy getdi insan neyləyim.

***28-31.05.2020***

# *ELMİN NƏ ÇOX CƏFASI VAR*

*Müəllimim, akademik*
*Soltan Mehdiyevə ithaf edirəm*

Elmin nə çox cəfası var, cəfa dolu həyat istər,
Zirvələrə çatmaq üçün, səbir, bir də ovqat istər.

Zülmətlərə cığır salmaq, hər kişiyə qismət olmur,
Pillə-pillə yüksəlməyə, xəyal, həm də qanad istər.

Kəşf olunan hər qanuna, həyat özü qiymət verər,
İnsanlara çatdırmağa neçə-neçə isbat istər.

Bu yol tamam daş-kəsəkdir, məşəqqətlər var orada,
Hər kələfi açmaq üçün, səndən dərin savad istər.

Elm yolunu Tanrı sevər, köməyini əsirgəməz,
Hər kim burda əzab çəksə, vermək ona sovqat istər.

Yeni kəşflər işıq verər, gələcəyə yol göstərər,
Gələcəyin son məqsədi, dünyanı dinc, rahat istər.

Hafiza, sən elmdən danış, elmi sevər olan yerdə,
Elmə dəyər vermək üçün Soltan kimi ustad istər.

***20-21.04.2020***

# *DÖVRAN AXAR ÇAYDIR, GERİYƏ DÖNMƏZ*

*(qəsidə)*

Dilim dedi, ey dildarım, yar sənə,
Könlüm verdi tamam ixtiyar sənə.

Qəlbimdəki təlaş nədir bilmirəm,
Qəlbin desin, bəlkə də aşkar sənə.

Xəzan getdi, bahar gəldi neyləyim,
Nə söyləsən, ürəyim həmkar sənə.

Gördüm səni, dedim bəlkə yuxudur,
Bildirdim öz dərdimi təkrar sənə.

Susdun yenə, qəlbim qaldı naəlac,
Çaşdığımdan söylədim əşar sənə.

Bir adətdir, gözəllər söz deməyir,
Xumar baxış eylər etibar sənə.

Hər nə desə yenə könül sevinər,
Məlum olar, qəlbimdə ilqar sənə.

Ürək söylər zaman keçir, il ötür,
Çox yubatsan, el deyər qəddar sənə.

Ay sevgilim, demə ki, mən Leyliyəm,
Məcnun təki səhralar düçar sənə.

Məcnun qalıb çox uzaqda, keçmişdə,
Yalnız məndən söz-söhbət çatar sənə.

Bəlkə rəqib sözlərimə rəng verib,
Hər kəlməmi eyləyər şüar sənə.

Sən qulaq as, gör ürəyim nə deyir,
Eyləyər o, çox sözü inkar sənə.

Soruşma gəl hər yetəndən məni sən,
Məndən edər alqışlar diyar sənə.

Əldən-ələ gəzər orda qəzəllər,
Qəzəllərim məndən yadigar sənə.

Oxu nəğmələri qəlbimdən gələn,
Nəğməmlə dillənir ruzigar sənə.

Şəms də, qəmər də, ülkər də istər,
Çatdırsın onlardan bir qərar sənə.

Son qərar sənindir, qəlbindən soruş,
Olmuş kim könlündə hökmdar sənə.

Hafizin bir sözü vardır, dəyişməz,
Əzəldən demişdir gülüzar sənə.

Bir fikir söyləsən, dövranı vardır,
Ötürdün, qalacaq intizar sənə.

Dövran axar çaydır, geriyə dönməz,
Dönən xatirədir, o qalar sənə.

***23-24.04.2020***

## QƏLBİM BUNDAN ÜZÜLMƏZMİ
***(qitə)***

Nə söyləsəm ürəkdəndir, yalan fikir gəlməz dilə,
Dinmədin sən bircə kəlmə, qəlbim bundan üzülməzmi?

Dilin sənin sussa əgər, xumar baxış sözün deyər,
Baxışını hər kim görsə, gözündən yaş tökülməzmi?

Ürək açdım bir gün sənə, nə hə dedin, nə yox dedin,
Sənsiz həyat heç bilmirəm, düzələrmi, düzəlməzmi?

Qərar verdim, hər bir sözü məktub ilə çatdırmağa,
Düşünməyə imkan olsa, fikir səlis düzülməzmi?

Gəl sinəmdə yaratma dağ, onsuz ömür dağ yaradır,
Gözüm bu dağlara baxır, səncə onlar çökülməzmi?

Ömür yolu dağlar aşar, gah yüksələr, gah da enər,
Bu yollarda sən olmasan, qəlbə kədər süzülməzmi?

Düşünmə ki, ömür yalnız dərd-ələmdir, sınaqlardır.
Hər sınaqdan çıxa bilsən, həyat yenidən gülməzmi?

***28.04.2020***

## ŞEİR, QƏZƏL NƏZMƏ ALAN SƏNƏTKARAM
***(qitə)***

Ağardı saç, gəldi möhnətin illəri,
Aşkar oldu, bir günahsız günahkaram.

Hər nə etdim, keçdi illər, yada düşməz,
Kömək üçün dəftər qələmi taparam.

Könül istər, hər yazdığım qəlbdən ola,
Xəta varsa, qayğısına mən qalaram.

Səbri böyük bir övladdır, istəməz ki,
Zəhmət verə, könül sevən nəğməkaram.

İstədiyi məndən yalnız bir dəftərdir,
Bir də sözlə dolu sinə, ki açaram.

Sözlərimdə hikmət vardır, zaman deyər,
Oxusalar, ürəkdən mən kam alaram.

Hər nəğməmdə səslər səni Ana torpaq,
Yaradana dəyər verən bir diyaram.

Zaman keçsə, hər günə mən həsrətdəyəm,
Şeir, qəzəl nəzmə alan sənətkaram.

***29.04.2020***

## EŞQİN DƏRİN MƏNASI VAR

Bir can ki, eşqdən yaranar, duymaz eşqi candan məgər?
Eşq əhlinə eşq biləndən, verilməzmi candan dəyər?

Eşqi duyan hər bir qəlbə, sevən ürək saf görünər,
Burda məkr, hiylə keçməz, gözlər verər candan xəbər.

Nə desəm mən qəlbdən gələr, dinləməyi dostlar sevər,
Dost sözünü eşitməyə mane olmaz heç bir çəpər.

Yalan sözlər könül üzər, gözüm qanlı yaşlar tökər,
Qəlbi həsrət yandırsa da, ol şuxa heç salmam nəzər.

Dedilər ki, həyatda eşq, eniş-yoxuşlu yol keçər,
Dildar dərdə çarə qılar, ürək açıb desən əgər.

Eşqin dərin mənası var, eşq həyata qanla gələr,
Hər kişiyə həyatında Vətən eşqi verər hünər.

Qəlbində eşq olmayanın, söylə, ömrü nəyə dəyər?
Bu cür həyat mümkünsüzdür, sorsan deyər neçə nəfər.

Eşq həyata vəsiqədir, deyilməyib bu söz hədər,
Çalış, Hafiz, ömür keçsin, məna ilə eşqin qədər.

***04-05.05.2020***

## SON ÜNVAN OLDUĞUN BİLMƏZ
*Dahi Məhəmməd Füzuliyə təzmin*

"Fəğan kim, bağrımın ol lalərux qan olduğun bilməz"*,
Qəlbimdə həsrətdən sonsuz bir güman olduğun bilməz.

Gər uzaq dolansa, yahu, hicrindən qəlbim kövrələr,
Hər hicrin sonu vəsldir, vəslin hicran olduğun bilməz.

Cövründən əzablar çəkdim, soruşdum günahım nədir?
Eşqimi bəyan etməyə səbəb can olduğun bilməz.

Dedilər bu qədər qəm etmə kim, eşq aləmi sirdir,
Bu sirli aləmin kimsə imtahan olduğun bilməz.

Hər dərdin çarəsi vardır, ol şuxa söylədim bunu,
Yerim gülüstan olsa, onsuz zindan olduğun bilməz.

Halımı sorsa dildar, tək ürəyim şikayət eylər,
Naşı sözündən nədən ki, viran olduğun bilməz.

Neylərsən, Hafiza, sənə qismət oldu ol lalərux,
Göylərin fərmanı budur, son ünvan olduğun bilməz.

***07-10.05.2020***

**misra Məhəmməd Füzulinindir*

# SƏNƏ DİLDAR OLANDAN SOR

*Dahi Məhəmməd Füzuliyə təzmin*

"Şəfayi-vəsl qədrin hicr ilə bimar olandan sor"*,
Həyat heçdir eşqdən kənar, ona düçar olandan sor.

Eşq əhlinin nə çəkdiyin naşı bir kəs heç bilərmi?
Eşq həm sevinc, həm kədərdir, eşqə şikar olandan sor.

Hər gözəlin öz sirri var, hər istəyən aça bilməz,
Bu aləmə gedən yolu sənə dildar olandan sor.

Sevgi mülkü qurmaq səndən cəfa dolu həyat istər,
Hər cəfada bir xoş aləm, orda memar olandan sor.

Yetər daha, gəl sınama, bu qəlb sənsiz qalmaz əsla,
Rəqiblərim heç dinərmi, dili şəkkər olandan sor.

O bağ-bağça, o gül-çiçək xatırladar ötən günü,
O günlərə gün çatarmı, sənə xumar olandan sor.

Bəlkə elə ötən bahar, coşan sular sənə deyər,
Yenə Hafizdir qəlbi saf, qəlbi aşkar olandan sor.

***11-12.05.2020***

*Misra Məhəmməd Füzulinindir*

# ELMİN ÖZÜ ONU SEVİR

*Böyük Hüseyn Cavidə təzmin*

"Mənə anlatma ki, eşq, aləmi-sevda nə imiş"*,
Hər aşiq olana qanuni-qayda nə imiş.

Eşq aləmi bir şəm, fələk də söndürə bilməz,
Görüşən sevgililər, sən demə, pərvanə imiş.

Leyli kimdir, Məcnun kim, hər birinin öz yeri var,
Sehirli bu dünya kim, başqa bir əfsanə imiş.

Dəyişib indi zaman, sevənlərin istəyi var,
İstəyi yoxsa əgər, deyirlər divanə imiş.

Ürəkdən sevən varmı, inanmaz əsla ürəyim,
Bu dünya hiylə, kələk, məhəbbət bəhanə imiş.

Hardadır sevən könül, hər cəfaya ürək dözə,
Yazanlar indi deyir, günahkar zəmanə imiş.

Tərk elə sən könlümü, qoy xəyalın mənlə qalsın,
O xəyal qismət mənə, eşqdən bir nişanə imiş.

Yetər mənə bir aləm ki, orda məni bir yar gözlər,
Bu yar olar mənlə həmdəm, rəqibə biganə imiş.

Görən deyir bu aləmdə Hafiz necə bəxtəvərdir,
Elmin özü onu sevir, əzəldən məstanə imiş.

***12-14.05.2020***

*Misra Hüseyn Cavidindir*

# HƏYAT BİR EŞQDİR

*(qitə)*

*Abasquluağa Bakıxanova təzmin*

Bir eşq var sinəmdə, həyatın ilk günlərindən,
Anam vermiş onu, əzəldən südüylə sovqat.

Sevdanı axtarsam, bu eşqim eyləyər kömək,
Yaradar qəlbimdə məhəbbət, bir də xoş ovqat.

Həyatın yolları dolanbac, sirlə doludur,
Sirləri eşq açar, uçmağa verər həm qanad.

Eşqi ver vətənə, vətəndir vicdanın sənin,
Vətənə olan eşq qəlbində ucaldar büsat.

Hər eşqdə məna var, vətənə eşq uca durar,
"Eşqdir can cövhəri, əvvəl odur, sonra həyat"*

Ey insan sanma ki, bu eşqin ötüb gedəcək,
Yalnız eşqlə qalacaq dünyada əbədiyyat.

***21-24.05.2020***

* *Misra Abasquluağa Bakıxanovundur.*

# HƏR SÖZÜN, HƏR SÖHBƏTİN DAHA İMTAHAN OLMASIN

*Böyük Mirzə Ələkbər Sabirə təzmin*

"İstəsən könlüm kimi zülfün pərişan olmasın"...*
"Hansı bir müşküldür kim, səbr ilə asan olmasın?!"*

Müşkülsüz həyat varmı? Xəyal qəlbə əzab verər,
Bu əzab həsrətdəndir, zaman peşiman olmasın!

Yaşadım ümid ilə, ötən günlər yenə gələr,
Hər sözün, hər söhbətin, daha imtahan olmasın!

Dözərəm hər nazına, salsan yada hərdən məni,
Gələrəm xəbər alsan, özgə xuraman olmasın!

Hər sözə aldanmaram, anlatma ki, sevda nədir?
Güman et Məcnun ola, çöllü-biyaban olmasın?

Sanma gəl böyük hünər, cövrü-cəfalar görmüşəm,
Yoxdur bir elə bəla, şəfaya imkan olmasın!

Hafiza, qəm çəkmə ki, eşqin sənin sənətədir,
Ürəkdən sevir səni, fikrin bədgüman olmasın!

***26-27.05.2020***

*misralar Mirzə Ələkbər Sabirindir*